Qazaxıstan Respublikasının Parlamentinin Məclisinə
15 yanvar 2012-ci ildə keçirilmiş növbədənkənar seçkilərdə
Türkdilli Ölkələrin Parlament Assambleyasından olan
beynəlxalq müşahidəçilər missiyasının
R Ə Y İ

Türkdilli Ölkələrin Parlament Assambleyasınının (TÜRKPA) beynəlxalq müşahidəçilər missiyası 2012-ci il yanvarın 15-də Qazaxıstan Respublikasının Parlamentinin Məclisinə keçirilən növbədənkənar seçkilərin Qazaxıstan Respublikasının milli qanunvericiliyinə və beynəlxalq öhdəliklərinə müvafiqliyi baxımından qısa müddətli monitorinqini keçirmişlər.

TÜRKPA beynəlxalq müşahidəçilər missiyasınun tərkibinə TÜRKPA üzvü olan iki dövlətin: Azərbaycan Respublikasının və Türkiyə Cümhuriyyətinin parlamentlərinin, eləcə də TÜRKPA Beynəlxalq Katibliyinin nümayəndələri daxil idi.

Səfər çərçivəsində beynəlxalq müşahidəçilər missiyasının üzvləri Almatı şəhəri üzrə Dairə Seçki Komissiyasının sədri cənab B.V.Dospanov, Almatı şəhər icra hakimiyyəti başçısı cənab Ahmetjan Yesimov və müxtəlif siyasi partiyaların Almatı şəhəri üzrə rəhbərləri ilə keçirdikləri görüşlərdə TÜRKPA beynəlxalq müşahidəçilər missiyasına Qazaxıstan Respublikasının Parlamentinin Məclisinə seçkilərə hazırlıq üzrə görülmüş işlər barədə ətraflı məlumat verilmişdir.

TÜRKPA beynəlxalq müşahidəçilər missiyası qısa müddətli monitorinq mərhələsində öz funksiyalarını yerinə yetirərkən seçki komissiyalarının və səsvermə üçün binaların hazırlığını qiymətləndirmiş, seçkiqabağı təşviqatın aparılmasının sonuncu mərhələsində onun gedişini təhlil etmişdir.

Parlament seçkiləri ərəfəsində ölkədə söz və mətbuat azadlığının müdafiəsi yönündə irəliləyişlər müşahidə olunmuş, kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyəti üçün bütün imkanlar yaradılmışdır.

Səsvermə zamanı seçki qərargahlarının üzvləri, namizədlər, onların vəkilləri və könüllülərinə təzyiq halları qeydə alınmamışdır.

Seçki günü səsvermə qanuna uyğun olaraq müəyyən olunmuş vaxtda 8:00-da başlamış və səsvermə başa çatdıqdan sonra qanunla müəyyən olunmuş vaxtdan 20:00-da sonra seçki bülletenlərinin sayılması və səsvermənin nəticələrinin hesablanmişdir. Bu prosesdə diqqət çəkən mütərəqqi hal əvvəlki seçkilərdə fərqli olaraq prosesin operativ həyata keçirilməsi olmuşdur.

Seçkiqabağı təşviqat kampaniyasında seçkilərin nəticələrinə təsir göstərə biləcək qanun pozuntuları nəzərə alınmamışdır.

Seçki prosesinin təkmilləşdirilməsi və demokratikləşdirilməsi istiqamətində prinsipial dəyişikliklər müşahidə olunmuşdur.

Qazaxıstan Respublikasında seçkilərin beynəlxalq müşahidəsinin həyata keçirilməsi üçün zəruri hüquqi və təşkilati-texniki şərait yaradılmışdır.

Respublikada geniş spektrdə ictimai və siyasi birliklərin fəaliyyət göstərməsi, həmçinin seçki müddəti ərzində xarici müşahidəçilərin iştirakı üçün müvafiq şəraitin yaradılması, seçkilərdə bitərəf qaydada beynəlxalq müşahidə aparılması üçün zəmin yaratmışdır.

Seçki məntəqələrində beynəlxalq təşkilatların, müxtəlif siyasi partiyaların, ictimai təşkilatların, həmçinin müstəqil müşahidəçilərin iştirakı seşki prosesinin şəffav şəkildə həyata keçirilməsi istiqamətində atılan addımlarda hesab etmək olar.

Seçiləcək 98 millət vəkili yerinə 7 siyasi partiyadan 386 namizəd iştirak etmişdir.

Müşahidə olunan seçki məntəqələrində vətəndaşların öz iradələrini sərbəst ifadə etmələri üçün Qazaxıstan Respublikası qanunvericiliyində nəzərdə tutulan bütün şərait yaradığını qeyd edilmişdir.

Seçicilərin irqindən, milliyyətindən, cinsindən, dilindən, mənşəyindən, əmlak və vəzifə mövqeyindən, yaşayış yerindən, dinə münasibətindən, əqidələrindən, ictimai birliklərə mənsubluğundan asılı olaraq onların səsvermədə iştirak etmələrinə birbaşa və ya dolayı məhdudiyyət faktları qeydə alınmamışdır.

TÜRKPA beynəlxalq müşahidəçilər missiyası üzvlərinin baş çəkdikləri Almatı şəhərinin Almalinski və Bostondikski rayonlarıdakı seçki məntəqələrinin heç birində inzibati və ya hüquq-mühafizə orqanlarının seçki komissiyalarının işinə müdaxilə etməsi faktları aşkar olunmamışdır.

Təhsil mərkəzlərinin tətildə olması ilə bağlı olaraq, muşahidə missiyası bir
neçə məntəqələrdə seçici tələbələrin az olduğunu müşahidə etmişdir. Müşahidə aparılan bir neçə məntəqədə səsvermə prossesində komfortsuzluq yaradan növbələrin olduğu qeydə alınmışdır. Ancaq bu səbəbdən heç bir məntəqədə səsvermədən imtina faktı qeydə alınmamışdır.

TÜRKPA beynəlxaq müşahidəçilər missiyası qeyd olunan nöqsanların kütləvi xarakter daşımadığını və onların Qazaxıstan Respublikasının Parlamentinin Məclisinə keçirilən növbədənkənar seçkilərin nəticələrinin düzgünlüyünə şübhə yaratmadığını bildirir.

15 yanvar 2012-ci ildə keçirilən növbədənkənar parlament seçkiləri Qazaxıstan xalqının azad iradəsini ifadə edərək ölkədə siyasi münasibətlərin inkişaf etdirilməsinə yol açmışdır.

TÜRKPA beynəlxalq müşahidəçilər missiyası vurğulayırlar ki, texniki qüsurlar istisna olmaqla Qazaxıstan Respublikasının Parlamentinin Məclisinə keçirilən növbədənkənar seçkiləri demokratik şəraitdə keçmiş, seçkilər haqqında milli qanunvericiliyə və beynəlxalq normalara müvafiq olmuşdur.

TÜRKPA beynəlxaq müşahidəçilər missiyası adından

Missiyanın rəhbəri
Qazaxıstan –Türkiyə parlamentlərarası dostluq qrupunun rəhbəri
TÜRKPA-nın Hüquq məsələləri komissiyasının sədri,
Türkiyə Parlamentinin deputatı Haluk **İPƏK**

Türkiyə Parlamentinin deputatı
Kadir Gökmən OĞUT

Türkiyə Parlamentinin deputatı
Ömər Faruk ÖZ

Azərbaycan Parlamentinin deputatı
Mədəniyyət komitəsinin sədri
Nizami CƏFƏROV

Azərbaycan Parlamentinin deputatı
Sədaqət VƏLİYEVA

TÜRKPA- nın baş katibi
Ramil HƏSƏNOV

TÜRKPA baş katibinin müavini
Mels SEMQALİYEV

Türkiyə Parlamentinin beynəlxalq əlaqələr
və protokol şöbəsinin əməkdaşı
Serhat Bülənt ERTEN

Almatı, 15 yanvar 2012-ci il